***Nərmin BABAYEVA***
*AMEA Folklor İnstitutunun dissertantı*
*E-mail: babayeva_narmin@yahoo.com*
*ORCID ID:* 0009-0005-7278-2624
*https://doi.org/10.59849/2309-7949.2026.3.109*

# ÇİN QIRMIZI ZƏRFİ (HONG BAO) VƏ AZƏRBAYCANDA HƏDİYYƏVERMƏ ƏNƏNƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Açar sözlər:** folklor, hədiyyəvermə, hong bao, Çin mədəniyyəti, Azərbaycan mərasimləri, toy, sosial-mədəni ənənə.

**«СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ КИТАЙСКОГО КРАСНОГО КОНВЕРТА (ХУНБАО) И ТРАДИЦИИ ДАРЕНИЯ ПОДАРКОВ В АЗЕРБАЙДЖАНЕ»**
**АННОТАЦИЯ**

В статье рассматривается роль фольклора в формировании исторической памяти, мировоззрения и обычаев народа. Основная цель исследования – сравнительный анализ традиций хунбао (红包) в китайской культуре и дарения подарков в азербайджанской церемониальной культуре. В исследовании рассматриваются история, символические основы традиции хунбао и значение красного цвета. Одновременно анализируются социальные функции дарения подарков в азербайджанских свадебных и семейных обрядах, принцип взаимности и его роль в укреплении родственных связей. Исследование показывает, что в обеих культурах дарение подарков является выражением добрых пожеланий, социальной поддержки и культурной привязанности. В современную эпоху эти традиции адаптируются к новым формам под влиянием цифровых технологий.

**Ключавые слова:** фольклор, дарение подарков, хунбао, китайская культура, азербайджанские церемонии, свадьба, социально-культурные традиции.

**“A COMPARATIVE ANALYSIS OF THE CHINESE RED ENVELOPE (HONG BAO) AND THE GIFT-GIVING TRADITION IN AZERBAIJAN”**
**ABSTRACT**

The article examines the role of folklore in shaping a people's historical memory, worldview and customs. The primary objective of the study is to conduct a comparative analysis of the “hong bao” (红包) tradition in Chinese culture and gift-giving practices within Azerbaijani ceremonial culture. The research explores the history and symbolic foundations of the “hong bao” tradition, as well as the significance of the color red. Simultaneously, it analyzes the social functions of gift-giving in Azerbaijani wedding and family ceremonies, the principle of reciprocity, and the role these practices play in strengthening kinship ties. The study demonstrates that in both cultures, gift-giving serves as an expression of good wishes, social support, and cultural connection. In the modern era, these traditions are adapting to new forms under the influence of digital technologies.

**Keywords:** folklore, gift-giving, hong bao, Chinese culture, Azerbaijani ceremonies, wedding, socio-cultural tradition.

Giriş. Folklor hər bir xalqın tarix boyu formalaşdırdığı, qoruduğu və nəsildən-nəslə ötürdüyü mənəvi və mədəni irsin mühüm hissəsidir. Xalqın dünyagörüşünü, inanclarını, adət-ənənələrini və sosial münasibətlərini əks etdirən folklor nümunələri müxtəlif mərasimlər və gündəlik həyatda baş verən proseslər vasitəsilə yaşadılır. Bu baxımdan hədiyyəvermə ənənəsi yalnız maddi mübadilə deyil, həm

də insanlar arasında qarşılıqlı münasibətlərin, hörmətin, xoş arzuların və sosial bağlılığın ifadəsi kimi mühüm əhəmiyyət daşıyır.

Hədiyyəvermə ənənəsi müxtəlif xalqların mədəniyyətində fərqli formalarda özünü göstərir. Çin mədəniyyətində geniş yayılmış hong bao (红包), yəni qırmızı zərf ənənəsi bunun mühüm nümunələrindən biridir. Qırmızı zərf vasitəsilə pul hədiyyə etmək xüsusilə Çin Yeni ili, toy, doğum günü və digər əlamətdar günlərdə xoşbəxtlik, firavanlıq və uğur arzularını ifadə edir. Bu ənənə Çin xalqının qədim inancları, simvolik təsəvvürləri və sosial münasibətləri ilə sıx bağlıdır.

Azərbaycan mədəniyyətində də hədiyyəvermə ənənəsi toy, nişan, doğum günü, bayram və digər ailə mərasimlərində mühüm yer tutur. Pul, qızıl, müxtəlif əşyalar və digər hədiyyələr vasitəsilə insanlar bir-birinə hörmət və diqqət göstərir, ailə və qohumluq münasibətlərini möhkəmləndirirlər. Xüsusilə toy mərasimlərində hədiyyəvermə qarşılıqlılıq, sosial dəstək və ictimai münasibətlərin qorunması baxımından əhəmiyyətli funksiyaya malikdir.

Mövzunun aktuallığı onunla əlaqədardır ki, qloballaşma və müasir texnologiyaların inkişafı nəticəsində ənənəvi hədiyyəvermə formaları dəyişir və yeni formalarda yaşamağa davam edir. Bu baxımdan Çin qırmızı zərfi və Azərbaycanda hədiyyəvermə ənənəsinin müqayisəli şəkildə öyrənilməsi hər iki xalqın folklorunu, mərasim miflərini və sosial dəyərlərini daha dərindən anlamağa imkan verir.

Bu tədqiqatın əsas məqsədi Çin qırmızı zərfi (hong bao) və Azərbaycanda hədiyyəvermə ənənəsinin folklorunu, tarixi və sosial-mədəni xüsusiyyətlərini müqayisəli şəkildə araşdırmaqdır. Tədqiqat çərçivəsində hong bao ənənəsinin yaranması və inkişafı, qırmızı rəngin simvolik mənası, hədiyyəvermənin Azərbaycan mərasim mədəniyyətindəki rolu, eləcə də hər iki ənənənin oxşar və fərqli cəhətləri təhlil edilir.

Çində qırmızı zərf (hong bao) ənənəsinin yaranması və günümüzdə müasir texnologiyaların təsirinə məruz qalması. Çin mədəniyyətində hong bao (红包), yəni "qırmızı zərf" ənənəsi mühüm sosial – mədəni təcrübələrdən biridir. Hong Çin dilindən tərcümədə qırmızı rəng, bao isə bağlama deməkdir. Bu iki sözün birləşməsi günümüzdə qırmızı zərf kimi tərcümə edilir. Bu adət əsasən pulun qırmızı rəngli zərf içərisində təqdim edilməsini ifadə edir və xüsusilə Çin Yeni ili – Bahar bayramı zamanı geniş yayılmışdır. Hong bao müasir dövrdə böyüklərin uşaqlara və gənc nəslin nümayəndələrinə uğur, xoşbəxtlik və firavanlıq arzusu ilə pul təqdim etməsi formasında yaşadılır. [UNESCO, başqa mənbə, 2024]

Hong bao ənənəsinin dəqiq başlanğıc ilini müəyyən olmasa da, onun tarixi köklərinin qədim Çində mövcud olmuş qoruyucu və simvolik pulvermə adətləri ilə əlaqəli olduğu qəbul edilir. Yeni il ərəfəsində pul hədiyyə etmək adəti pis ruhlardan qorunma, bədbəxtliyin uzaqlaşdırılması və yeni ildə uğur qazanmaq arzusu ilə əlaqələndirilmişdir. Bu inanclar Nian və Sui kimi mifoloji varlıqlarla bağlı xalq rəvayətlərində öz əksini tapır. [Shi Zhongwen, Hu Xiaolin, 1998]

Nian (年兽) – Çin mifologiyasında Yeni il ərəfəsində insanlara, heyvanlara və təsərrüfata hücum edən qorxunc əjdahaya bənzər mifoloji varlıqdır. Əfsanəyə görə, Nian qırmızı rəngdən, gur səsdən və oddan qorxur. Buna görə Çin Yeni ilində qırmızı bəzəklərdən istifadə edilir, fişənglər atılır və nağara səsləri çıxarılır. Bu ənənələr pis qüvvələri uzaqlaşdırmaq və yeni ildə uğur qazanmaq məqsədi daşıyır.

Yeni il pulunun yaranması ilə bağlı geniş yayılmış əfsanələrdən birinə görə isə Sui (祟) adlı mifoloji varlıq Yeni il gecəsi uşaqlara zərər yetirirdi. Rəvayətə əsasən, qədim dövrlərdə bir ailə uşağını qorumaq məqsədilə onun yastığının yanında qırmızı kağıza bükülmüş səkkiz mis sikkə yerləşdirir. Sikkələrdən yayıldığı düşünülən parlaq işıq Sui-ni qorxudaraq uzaqlaşdırır. Bu hadisədən sonra uşaqlara Yeni il pulu vermək ənənəsinin formalaşdığı rəvayət edilir. Bu pulun ilkin olaraq "Yasui qian" (压祟钱) adlandırıldığı hesab edilir. Burada *sui* (祟) heroqlifi pis ruh və ya bədbəxtlik gətirən qüvvə mənasını ifadə edir. Sonrakı dövrlərdə sözün *sui* (岁) – "il" sözü ilə fonetik oxşarlığı nəticəsində anlayış "Yasui qian" (压岁钱) formasında işlənməyə başlamışdır. Beləliklə, yeni il pulu yalnız qoruyucu vasitə deyil, həm də köhnə ilin yola salınması və yeni ilin uğurla qarşılanmasının simvoluna çevrilmişdir [Chen, Zhang, 1994, s.1-2].

Hong bao ənənəsinin tarixi inkişafını izah etmək üçün yasuiqian və yashengqian anlayışları xüsusi əhəmiyyət daşıyır. Yasuiqian ənənəvi olaraq Çin Yeni ili zamanı uşaqlara və gənclərə verilən "Yeni il pulu" və ya "şanslı pul" mənasında işlədilir. Yashengqian (压胜钱) isə qədim Çində istifadə olunan qoruyucu və ritual sikkələrə aid edilir. Bu sikkələr adi puldan fərqli olaraq, üzərində xoşbəxtlik, uzunömürlülük, sərvət və qorunma ilə bağlı yazılar və təsvirlər daşıyırdı.

Bu kontekstdə qədim Çin mədəniyyətində mövcud olmuş qoruyucu sikkələr xüsusi əhəmiyyət daşıyır. Tarixi mənbələrdə "压胜钱" (yashengqian) kimi tanınan, bəzən "amulet qəpikləri" və ya "xoşbəxtlik qəpikləri" kimi tərcümə edilən sikkələrə rast gəlinir. Bu əşyalar adi puldan fərqli olaraq yalnız iqtisadi mübadilə vasitəsi kimi nəzərdə tutulmamış, müəyyən ritual və simvolik funksiyalar daşımışdır. Onların üzərində xoşbəxtlik, uzunömürlülük, sərvət, uğur və qorunma ilə bağlı yazılar və təsvirlər yerləşdirilə bilirdi. Belə sikkələrin istifadəsi pulun Çin mədəniyyətində yalnız iqtisadi deyil, həm də simvolik və ritual məna daşıya bildiyini göstərir. Bəzi alimlər bu tip sikkələrin meydana gəlməsini Han (e.ə.206-e.220) sülaləsi dövrünə aid edirlər. Müvafiq terminoloji izahlar *Shuowen Jiezi* (说文解字)və *Cihai* （词海）kimi lüğət mənbələrinə əsaslandırılır. Bu mənbələrdə "amulet pulu" anlayışının mahiyyəti insanın arzuolunmaz hesab etdiyi qüvvə və hadisələri uzaqlaşdırmaqla əlaqələndirilir. Bu baxımdan, həmin sikkələr qədim Çin xalq inancları və sehirli-ritual təcrübələrin maddi ifadə formalarından biri kimi qiymətləndirilə bilər. Sözügedən proseslərin əsas mahiyyəti insanların təhlükə, xəstəlik, bədbəxtlik və digər arzuolunmaz hallardan qorunmaq məqsədilə müxtəlif simvollardan, dualardan və sehirli təsəvvürlərdən istifadə etməsinə əsaslanırdı.

Bu tip sikkələrin qoruyucu funksiyası, ilk növbədə, onların üzərindəki yazı və təsvirlərdə öz əksini tapırdı. Məsələn, bəzi sikkələrin üzərində insanı təhlükədən qorumaq, sərvət və rifah gətirmək, uzun ömür arzulamaq, bədbəxtlik və şər qüvvələri uzaqlaşdırmaq məzmunlu ifadələrə rast gəlinir. Bununla yanaşı, əjdaha, tısbağa, ilan və qoşa balıq kimi ənənəvi olaraq uğur, uzunömürlülük, qorunma və firavanlıqla əlaqələndirilən simvolik təsvirlərdən də istifadə edilmişdir. Beləliklə, sikkənin maddi dəyərindən daha çox, onun üzərindəki yazı və təsvirlərin apotropaik (şər qüvvələri uzaqlaşdırıcı) funksiyası ön plana çıxmışdır.

Tarixi inkişaf baxımından bu cür amulet sikkələrin istifadəsinin Tan (618-907-ci illər) və Sonq (960-1279-cu illər) sülalələri dövründə genişləndiyi, Min

(1368-1644-cü illər) sülaləsi dövründə isə müxtəlif formalarda davam etdiyi qeyd olunur. Onların ön tərəfində "Cənnət altında sülh" (*Tianxia Taiping*, 天下太平) və "Da Guan Tong Bao" (大观通宝) kimi yazılara, arxa tərəfində isə astroloji simvollara, tısbağa və ilan təsvirlərinə, qılınc motivlərinə, Taoist talismanlarına və Buddist ikonografiyasına rast gəlinirdi. Bu xüsusiyyətlər həmin əşyaların sırf monetar funksiyadan fərqli olaraq, dini və ritual məna daşıdığını göstərir. Əhəmiyyətli cəhətlərdən biri də ondan ibarətdir ki, bu tip sikkələr adi pul dövriyyəsində mübadilə vasitəsi kimi istifadə edilməmişdir. Onlar daha çox müxtəlif dini və məişət mərasimlərində, qoruyucu ritual mərasimlərində və bəzi hallarda müalicə məqsədli tətbiqlərdə simvolik vasitə kimi çıxış etmişdir. Bu səbəbdən onların əsas funksiyasını iqtisadi deyil, mərasim, simvolik və qoruyucu funksiya təşkil etmişdir. [Shi, 2010, s.7-10]

Sonrakı dövrlərdə hong bao ənənəsi yalnız qoruyucu funksiyanı deyil, ailə münasibətlərini, böyüklərin kiçiklərə qayğısını və xoş arzularını da ifadə etməyə başlamışdır. Xüsusilə Sonq sülaləsi dövründən (960–1279-cu illər) etibarən Yeni il münasibətilə uşaqlara və gənclərə pul təqdim edilməsi ilə bağlı məlumatlara rast gəlinir. Zaman keçdikcə bu pul sağlamlıq, uğur, firavanlıq və xoşbəxtlik arzularının simvoluna çevrilmişdir. [Yuko , 2026, başqa mənbə.]

Çin mədəniyyətində qırmızı rəngin simvolik əhəmiyyəti də hong bao ənənəsinin formalaşmasında mühüm rol oynayır. Qırmızı rəng sevinc, xoşbəxtlik, uğur və firavanlıqla əlaqələndirilir. Buna görə pulun qırmızı zərfdə təqdim edilməsi yalnız maddi hədiyyə deyil, həm də xeyir-dua və uğurun maddi ifadəsi kimi qəbul olunur.

Bu baxımdan "amulet qəpikləri" (yashengqian) ənənəsi ilə sonrakı "Yeni il pulu" (yasuiqian) praktikası arasında müəyyən mədəni əlaqə müşahidə olunur. Lakin bu iki anlayışı tamamilə eyniləşdirmək düzgün olmaz. "Amulet qəpikləri" daha çox qoruyucu və ritual xarakterli sikkələrə aid olduğu halda, "Yeni il pulu" Yeni il zamanı uşaqlara və gənclərə pul təqdim edilməsi adətini ifadə edir. Qədim qoruyucu pul ənənələrinin sonrakı Yeni il pulvermə adətinin formalaşmasına təsir göstərən mədəni amillərdən biri olduğunu qeyd etmək olar.

Beləliklə, zaman keçdikcə "Yeni il pulu" anlayışının məzmunu da genişlənmişdir. Pul uşaqların qorunması ilə bağlı ilkin inanclarla yanaşı, onların sağlam böyüməsi, gələcək həyatında uğur qazanması, firavan və xoşbəxt olması arzularını ifadə edən simvola çevrilmişdir. Bu dəyişiklik folklorun xarakterik xüsusiyyətlərindən birini – ənənənin sosial şəraitə uyğun olaraq yeni məna və funksiyalar qazanmasını göstərir.

Çin qırmızı zərfinin bugünkü tanınan formasının meydana gəlməsində isə qırmızı rəngin simvolik əhəmiyyəti mühüm rol oynayır. Çin mədəniyyətində qırmızı rəng tarixən sevinc, xoşbəxtlik, uğur, firavanlıq və müsbət enerji ilə əlaqələndirilmişdir. Müxtəlif bayram və mərasimlərdə qırmızı rəngdən geniş istifadə olunması onun müsbət simvolik məzmununu gücləndirmişdir. Buna görə pulun qırmızı zərfdə təqdim edilməsi zaman keçdikcə yalnız pulverməni deyil, həm də uğur və xeyir-duanın maddi simvolunu ifadə etməyə başlamışdır.

Burada Çin qırmızı zərfinin folklor baxımından əhəmiyyətli xüsusiyyəti ondan ibarətdir ki, zərfin özü də mədəni simvola çevrilmişdir. Ənənəvi olaraq pul

iqtisadi dəyər daşıyan vasitə olduğu halda, qırmızı zərf həmin pulun sosial və mədəni mənasını dəyişdirir. Eyni məbləğin adi şəkildə təqdim edilməsi ilə qırmızı zərfdə təqdim edilməsi arasında mədəni baxımdan fərq yaranır. Qırmızı rəng və zərfin təqdim edilmə forması hədiyyəyə əlavə simvolik məna verir. Beləliklə, hong bao həm maddi obyekt, həm də sosial münasibətləri və xoş arzuları ifadə edən mədəni işarə kimi çıxış edir.

Çin qırmızı zərfi formalaşmasında ailə və nəsillərarası münasibətlər də mühüm rol oynayır. Çin Yeni ili zamanı böyüklərin uşaqlara və gənclərə pul verməsi yalnız hədiyyə mübadiləsi deyil, həm də ailə daxilində müəyyən sosial münasibətlərin ifadəsidir. Böyüklər bu vasitə ilə kiçik nəslə qayğı göstərir, onlara xoş arzularını çatdırır və ənənənin davamlılığını təmin edirlər. Gənc nəsil isə bu davranış formasını müşahidə etməklə və sonrakı mərhələdə özü tətbiq etməklə mədəni ənənənin ötürülməsində iştirak edir [Yang, 2026, başqa mənbə.].

Bu proses Çin qırmızı zərfinin folklorun nəsildən-nəslə ötürülməsi mexanizmi baxımından da əhəmiyyətini göstərir. Ənənənin qorunması yalnız onun haqqında məlumatın ötürülməsi ilə deyil, onun praktiki şəkildə həyata keçirilməsi ilə təmin olunur. Uşağın hong bao alması, daha sonra böyüdükdə özündən kiçik nəslə hong bao verməsi ənənənin davamlılığını təmin edən sosial mexanizm yaradır. Beləliklə, hong bao müəyyən davranış modelinin nəsillər arasında təkrarlanması yolu ilə qorunur.

Müasir dövrdə isə hong bao ənənəsi yeni sosial və texnoloji şəraitə uyğunlaşmışdır. Ənənəvi üzərində xoşbəxtlik heroqlifi yazılan kağız qırmızı zərflərlə yanaşı, rəqəmsal hong bao forması da meydana gəlmişdir. Elektron ödəniş sistemləri və sosial media platformaları vasitəsilə istifadəçilər bir-birlərinə virtual qırmızı zərflər göndərə bilirlər [Li,2025, s.284–303].

Bu dəyişiklik ənənənin mahiyyətinin tamamilə aradan qalxmasına deyil, onun ifadə formasının dəyişməsinə səbəb olmuşdur. Ənənəvi zərfin yerini rəqəmsal zərf tutsa da, uğur, xoşbəxtlik, xeyir-dua və sosial əlaqələrin möhkəmləndirilməsi kimi əsas funksiyalar böyük ölçüdə qorunub saxlanılır.

Beləliklə, hong bao adətinin tarixi inkişafını bir neçə mərhələ üzrə nəzərdən keçirmək mümkündür: qədim Çində qoruyucu və simvolik sikkələrin istifadəsi, Yeni il münasibətilə uşaqlara pul verilməsi ənənəsinin inkişafı, pulun qırmızı zərflərdə təqdim edilməsinin geniş yayılması və nəhayət, müasir dövrdə ənənənin rəqəmsal mühitə keçməsi. Bu inkişaf folklor ənənələrinin dəyişməz olmadığını, əksinə, cəmiyyətin sosial, iqtisadi və texnoloji dəyişikliklərinə uyğunlaşaraq yeni formalar qazandığını göstərir.

Hong bao ənənəsi Çin xalqının kollektiv yaddaşında qorunan və müxtəlif tarixi mərhələlərdən keçərək müasir dövrə çatan sosial-mədəni prosesdir. Onun tarixi köklərində qorunma və uğurla bağlı inanclar mühüm yer tutsa da, zaman keçdikcə hong bao ailə münasibətlərinin, nəsillərarası əlaqələrin, qarşılıqlı hörmətin və xoş arzuların ifadə vasitəsinə çevrilmişdir. Qırmızı rəngin simvolik məzmunu isə bu praktikanın mədəni əhəmiyyətini daha da gücləndirmişdir. Bu səbəbdən hong bao-nun tədqiqi Çin folklorunda ənənə, simvol, sosial münasibət və mədəni transformasiya arasındakı əlaqələrin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan, Çin qırmızı zərfinin tarixi ənənəvi inanc → qoruyucu pul →amulet qəpikləri → qırmızı zərf → elektron qırmızı zərf istiqamətində inkişaf edən uzunmüddətli mədəni proses kimi qiymətləndirilə bilər. Onun forması zamanla dəyişsə də, əsas funksiyalarından biri insanlara xoşbəxtlik, sağlamlıq, uğur və firavanlıq arzusu çatdırmağı qoruyub saxlamışdır.

Hong bao ənənəsinin müasir dövrdə keçirdiyi ən mühüm dəyişikliklərdən biri onun rəqəmsal texnologiyalarla inteqrasiyasıdır. Ənənəvi olaraq qırmızı zərf içərisində nağd pulun təqdim edilməsi formasında həyata keçirilən bu praktika mobil internetin, elektron ödəniş sistemlərinin və sosial media platformalarının inkişafı nəticəsində yeni məzmun və təqdimetmə formaları qazanmışdır. Bu baxımdan rəqəmsal hong bao ənənəvi mədəni praktikanın aradan qalxması deyil, onun yeni texnoloji mühitə uyğunlaşması kimi qiymətləndirilə bilər. [Augustin-Jean & Saxena, 2024, s. 21–29]

Rəqəmsal hong bao-nun yayılmasında xüsusilə mobil ödəniş platformaları və sosial şəbəkələr mühüm rol oynamışdır. Çində yaradılmış WeChat və Alipay kimi rəqəmsal platformalar istifadəçilərə elektron formada pul göndərmək və qəbul etmək imkanı verir. WeChat-da 2014-cü ildən rəqəmsal hong bao-nun yaradılması, "Lucky Money" funksiyası və 2015-ci ildə WeChat hong bao-nun viral istifadəsi geniş yayılmağa başlamışdır. Bu imkan hong bao-nun ənənəvi fiziki formasını dəyişdirərək onu gündəlik rəqəmsal ünsiyyətin bir hissəsinə çevirmişdir. [Tu, 2016, 343-350]

Rəqəmsal hong bao-nun xüsusiyyətlərindən biri onun fərdi təqdim etmədən qrup şəklində paylaşmaya keçidi asanlaşdırmasıdır. Ənənəvi hong bao adətən konkret bir şəxsə təqdim edilirdisə, rəqəmsal platformalarda eyni məbləğin və ya müxtəlif məbləğlərin bir qrup insan arasında bölüşdürülməsi mümkündür. Bu xüsusiyyət xüsusilə Çin Yeni ili zamanı ailə üzvləri, dostlar, həmkarlar və sosial qruplar arasında qarşılıqlı əlaqənin yeni formasını yaratmışdır. Rəqəmsal mühit hong bao-nun simvolik məzmununu da genişləndirmişdir. Ənənəvi qırmızı zərfin özü uğur, xoşbəxtlik, firavanlıq və xoş arzularla əlaqələndirilirdisə, elektron hong bao-da bu simvolizm rəqəmsal mesajlar, animasiyalar, virtual qırmızı zərflər və bayram təbrikləri ilə müşayiət oluna bilir. Beləliklə, pulun ötürülməsi yalnız iqtisadi əməl olmaqdan çıxaraq rəqəmsal kommunikasiya aktının tərkib hissəsinə çevrilir. Burada mühüm məqam ondan ibarətdir ki, rəqəmsallaşma hong bao-nun əsas sosial funksiyalarını tamamilə dəyişdirmir. Əksinə, ənənəvi praktikanın əsas mənaları – diqqət göstərmək, xoş arzular bildirmək, qarşılıqlı münasibətləri möhkəmləndirmək və bayram münasibətilə sosial əlaqəni ifadə etmək – yeni texnoloji vasitələrlə davam etdirilir. Fərq əsasən bu funksiyaların həyata keçirildiyi mühitdə və kommunikasiya formasında meydana çıxır.

Digər tərəfdən, rəqəmsal hong bao məsafə amilini əhəmiyyətli dərəcədə aradan qaldırır. Ənənəvi zərfin təqdim edilməsi fiziki olaraq eyni məkanda olmağı tələb etdiyi halda, elektron hong bao müxtəlif şəhərlərdə və ya ölkələrdə yaşayan insanlar arasında saniyələr ərzində göndərilə bilir. Bu xüsusiyyət xüsusilə miqrasiya və urbanizasiya şəraitində ailə və qohumluq əlaqələrinin qorunması baxımından əhəmiyyətlidir. [Li, 2025, 284-303]

Rəqəmsallaşma həmçinin gənc nəslin ənənə ilə münasibətinə təsir göstərir. Ənənəvi mərasimləri daha çox fiziki iştirak və ailə daxilində müşahidə yolu ilə

mənimsəyən gənclər müasir dövrdə hong bao praktikasını rəqəmsal platformalar vasitəsilə də həyata keçirirlər. Nəticədə mədəni ənənənin ötürülməsi yalnız fiziki mərasim mühiti ilə məhdudlaşmır, rəqəmsal kommunikasiya məkanına da keçir. Bununla belə, rəqəmsal hong bao ənənəvi praktikanın bəzi aspektlərini dəyişdirir. Fiziki zərfin hazırlanması, seçilməsi və şəxsən təqdim edilməsi kimi mərasim elementləri elektron formada arxa plana keçir. Bunun əvəzində sürət, əlçatanlıq, qrup halında paylaşma və interaktivlik ön plana çıxır. Bu baxımdan rəqəmsallaşma ənənənin məzmununu tamamilə aradan qaldırmır, lakin onun icra mexanizmini və sosial qarşılıqlı əlaqə formasını transformasiya edir. Buna görə də Çin qırmızı zərfi ənənəvi xalq adətləri və müasir texnologiyanın birləşməsinin tipik bir nümunəsi kimi qəbul edilə bilər.

Azərbaycan cəmiyyətində hədiyyəvermə ənənələri və müasir dövrün təsirləri

Azərbaycan cəmiyyətində ailə, qohumluq, dostluq və qonşuluq münasibətləri tarixən sosial həyatın mühüm əsaslarından biri olmuşdur. İnsanlar arasında qarşılıqlı hörmət, qayğı, yardım və həmrəylik kimi dəyərlər müxtəlif adət və ənənələr vasitəsilə ifadə edilir. Bu ənənələr içərisində hədiyyəvermə xüsusi yer tutur. Hədiyyənin təqdim olunması yalnız maddi əşyanın və ya pulun bir şəxsdən digərinə verilməsi kimi qiymətləndirilmir. Hədiyyəvermə insanların bir-birinə münasibətini, sosial bağlılığını, hörmətini, xoş niyyətini və qarşılıqlı dəstəyini ifadə edən sosial-mədəni davranış formasıdır [Pearce, 2015, s.1-11].

Azərbaycanın ənənəvi mədəniyyətində hədiyyəvermə müxtəlif həyat hadisələri və mərasimlərlə sıx bağlıdır. Toy, nişan, ad günü, bayram, sünnət mərasimi, yeni evə köçmə və digər mühüm ailə hadisələri zamanı yaxın qohumların, dostların və tanışların hədiyyə təqdim etməsi geniş yayılmış davranışlardan biridir. Hədiyyənin forması mərasimin xarakterindən, insanlar arasındakı münasibətin yaxınlığından və sosial şəraitdən asılı olaraq dəyişə bilər. Bu baxımdan hədiyyə maddi dəyərindən daha çox onun sosial və simvolik funksiyası ilə əhəmiyyət qazanır [Azərbaycan etnoqrafiyası II cild, 2007, s.90,s.167, s.387].

Azərbaycanın Qarabağ və Zəngəzur bölgələrində "görəlkə" adlı bir adət olmuşdur. Adətə görə, azərbaycanlılar bir-biri ilə mehribanlığı və yaxınlığı qoruyub saxlamaq məqsədilə müəyyən səbəb və bəhanələrlə qohumların, dostların evlərinə tez-tez "görəlkə"yə gedərlərmiş. Görəlkə adlı bu adət azərbaycanlılar arasında indiyədək qalmışdır. Bu adət hədiyyə ilə qonaq getmək adəti olsa da, onda qohuma və dosta bir növ əl tutmaq, maddi köməklik etmək və qayğı göstərmək keyfiyyətləri vardır [Azərbaycan etnoqrafiyası III cild, 2007, s.77].

Bu faktlar göstərir ki, ənənəvi Azərbaycan mərasim mifində hədiyyəvermə yalnız maddi əşyanın təqdim edilməsi ilə məhdudlaşmamış, həm də qarşılıqlı yardım və sosial münasibətlərin davamlılığını təmin edən vasitələrdən biri olmuşdur. Toy mərasimində qohum-qonşuların kollektiv şəkildə iştirakı və maddi dəstək göstərməsi mərasimin fərdi ailə hadisəsindən daha geniş sosial xarakter daşımasına şərait yaratmışdır [Yalchin-Heckmann,2001, s. 24-30].

Hədiyyənin sosial və simvolik funksiyası onun yalnız iqtisadi dəyəri ilə müəyyənləşmədiyini də göstərir. Azərbaycan ənənəvi mədəniyyətində mühüm günlərdə hədiyyə təqdim edilməsi insanlar arasında xoş münasibətin, diqqətin və qarşılıqlı hörmətin ifadə vasitələrindən biri kimi çıxış etmişdir. Bu baxımdan hədiyyənin sosial əhəmiyyəti onun maddi dəyərindən əlavə, hansı münasibət və niy-

yət çərçivəsində təqdim edilməsində də özünü göstərir. Azərbaycan etnoqrafik materiallarında doğum, sünnət, qız istəmə, nişan, toy və bayram kimi mərasimlərdə hədiyyə təqdim edilməsi ənənəsinin mövcudluğu qeyd olunur.

Qarşılıqlılıq prinsipi isə xüsusilə qohumluq və qonşuluq münasibətlərində özünü aydın göstərir. Toy mərasimlərində bir ailəyə göstərilən maddi və mənəvi dəstəyin gələcəkdə qarşı tərəfə qaytarılması ənənəsi sosial münasibətlərin davamlılığını təmin edən mexanizmlərdən biri kimi çıxış etmişdir. Bu baxımdan hədiyyəvermə birtərəfli təqdimetmə aktı deyil, müəyyən sosial öhdəlik və qarşılıqlılıq münasibətləri yaradan mərasim kimi səciyyələndirilə bilər [Vəliyev, 2016, s. 72-75].

Azərbaycan toy mərasimləri müxtəlif mərhələlərdən ibarət olmaqla, hər bir mərhələdə müəyyən xalq adət və ənənələrinin icrası ilə müşayiət olunur. Toy mərasimində müşahidə olunan bu adətlər ailə və məişət münasibətlərinin, eləcə də kollektiv sosial davranışların mühüm göstəricilərindən biridir [Xəlilova, 2025, s.90-96].

Bu xüsusiyyət Azərbaycan və Çin mədəniyyətlərindəki hədiyyəvermə ənənələri arasında müəyyən müqayisələr aparmağa imkan verir. Çində hong bao vasitəsilə pul təqdim edilməsi kimi, Azərbaycanda da müəyyən mərasimlərdə pul və hədiyyələrin təqdim edilməsi sosial münasibətlərin ifadə vasitəsinə çevrilir. Hər iki halda pulun özü iqtisadi dəyər daşısa da, onun mərasim çərçivəsində təqdim edilməsi həmin pula əlavə mədəni və sosial məna qazandırır. Burada əsas məsələ yalnız "nə qədər pul verilməsi" deyil, kim tərəfindən, hansı münasibət çərçivəsində və hansı mərasim zamanı təqdim edilməsidir.

Bununla belə, Azərbaycan hədiyyəvermə ənənəsini Çin qırmızı zərfi ənənəsi ilə tamamilə eyniləşdirmək düzgün olmaz. Çin mədəniyyətində qırmızı zərf özünəməxsus forma və simvolik məna daşıyan konkret ənənəvi praktikadır. Azərbaycan mədəniyyətində isə hədiyyəvermə daha geniş davranış sistemi olub müxtəlif mərasimlərdə müxtəlif formalarda həyata keçirilir. Burada hədiyyənin konkret qablaşdırılması və ya rəngi deyil, onun sosial münasibət və xoş arzunun ifadəsi olması daha mühüm əhəmiyyət daşıyır.

Azərbaycan toylarında hədiyyəvermə eyni zamanda ictimai iştirakın göstəricisi kimi də çıxış edir. Toya gəlmək və hədiyyə təqdim etmək insanın həmin ailə ilə sosial əlaqəsinin mövcudluğunu nümayiş etdirir. Bu davranış vasitəsilə fərd özünü müəyyən ailə, qohumluq və dostluq şəbəkəsinin üzvü kimi təqdim edir. Beləliklə, mərasimlər fərdlər arasındakı münasibətlərin yenilənməsi və möhkəmləndirilməsi üçün sosial platformaya çevrilir.

Hədiyyəvermənin digər mühüm xüsusiyyəti onun emosional və mənəvi məzmunudur. Hədiyyə verən şəxs qarşı tərəfə sevinc, xoşbəxtlik, sağlamlıq, firavanlıq və uğur arzuladığını nümayiş etdirir. Xüsusilə ailə mərasimlərində hədiyyənin təqdim edilməsi mərasim iştirakçılarının emosional bağlılığını gücləndirir. Buna görə hədiyyə maddi obyekt olmaqla yanaşı, insanlar arasında emosional münasibətlərin ifadə vasitəsi kimi də çıxış edir.

Bu ənənənin formalaşmasında ailənin və yaşlı nəslin rolu xüsusilə böyükdür. Uşaqlar və gənclər hədiyyəvermə davranışını ilk növbədə ailə və yaxın sosial mühit vasitəsilə öyrənirlər. Onlar müxtəlif mərasimlərdə iştirak etməklə hansı hallarda hədiyyə verildiyini, hədiyyənin necə təqdim olunduğunu və bu davranışın hansı sosial məna daşıdığını mənimsəyirlər. Daha sonra həmin şəxslər böyüdükdə

öyrəndikləri davranışları öz həyatlarında tətbiq edirlər. Beləliklə, hədiyyəvermə ənənəsi nəsildən-nəslə ötürülən sosial davranış modeli kimi davam edir.

Müasir dövrdə Azərbaycan cəmiyyətində hədiyyəvermə ənənəsi əvvəlki formalarını tamamilə itirməmiş, lakin müəyyən dəyişikliklərə məruz qalmışdır. Şəhərləşmə, həyat tərzinin dəyişməsi, iqtisadi münasibətlərin inkişafı və texnologiyanın gündəlik həyata daxil olması hədiyyəvermənin formalarına təsir göstərir. Ənənəvi maddi hədiyyələrlə yanaşı, müxtəlif elektron ödəniş və rəqəmsal hədiyyə formalarının meydana çıxması bu praktikanın müasir şəraitə uyğunlaşdığını göstərir.

Bununla yanaşı, müasir dəyişikliklər hədiyyəvermənin əsas sosial funksiyalarını tamamilə aradan qaldırmır. Əksinə, forma dəyişsə də, hörmət, təbrik, sosial dəstək, qarşılıqlılıq və münasibətlərin qorunması kimi əsas funksiyalar davam edir. Bu xüsusiyyət folklor və ənənəvi mədəniyyətin dinamik xarakterini nümayiş etdirir. Ənənə müəyyən xarici dəyişikliklərə məruz qalsa da, onun cəmiyyət üçün əsas sosial mənası qorunub saxlanıla bilər.

Bu baxımdan Azərbaycan cəmiyyətində hədiyyəvermə ənənəsini folklorun gündəlik həyat və mərasim mədəniyyəti ilə əlaqəsini göstərən nümunələrdən biri kimi nəzərdən keçirmək mümkündür. Burada ənənənin əsas xüsusiyyəti onun konkret bir əşya və ya hədiyyə formasında deyil, sosial davranış modeli kimi nəsillər tərəfindən təkrarlanmasıdır. İnsanlar mühüm hadisələr zamanı bir-birlərinə dəstək göstərməklə yalnız fərdi münasibətlərini deyil, daha geniş sosial əlaqələr sistemini də qoruyurlar.

Beləliklə, Azərbaycanda hədiyyəvermə ənənəsi ailə və dostluq münasibətlərinin möhkəmləndirilməsi, qarşılıqlı yardım və sosial həmrəyliyin ifadə olunması, xoş arzuların çatdırılması və nəsillərarası mədəni dəyərlərin ötürülməsi baxımından əhəmiyyətli sosial-mədəni praktikadır. Toy, ad günü, bayram və digər mühüm mərasimlər zamanı pul və ya hədiyyə təqdim edilməsi bu ənənənin müasir Azərbaycan cəmiyyətində də yaşadığını göstərir. Çin qırmızı zərfi ənənəsi ilə müqayisədə Azərbaycan nümunəsi eyni universal sosial funksiyanın – maddi hədiyyə vasitəsilə xoş arzu, dəstək və sosial bağlılığın ifadə edilməsinin – fərqli mədəni formada təzahürünü nümayiş etdirir. Bu müqayisə folklorun müxtəlif xalqlarda oxşar sosial ehtiyaclara cavab verən, lakin hər bir xalqın öz tarixi və mədəni xüsusiyyətlərinə uyğun formalaşan dinamik sistem olduğunu göstərir.

Nəticə. Aparılan müqayisəli təhlil göstərir ki, Çin qırmızı zərfi (hong bao) və Azərbaycanda hədiyyəvermə ənənəsi müxtəlif tarixi və sosial-mədəni şəraitdə formalaşsa da, hər iki ənənənin əsasını xoş arzuların ifadəsi, sosial münasibətlərin möhkəmləndirilməsi, qarşılıqlı yardım və mədəni dəyərlərin nəsildən-nəslə ötürülməsi təşkil edir. Bu baxımdan hədiyyəvermə yalnız maddi mübadilə deyil, həm də insanların sosial münasibətlərini, mərasim miflərini, inanclarını və kollektiv yaddaşını əks etdirən mühüm folklor təcrübəsidir.

Hong bao ənənəsinin tarixi inkişafı göstərir ki, onun məzmunu zaman keçdikcə dəyişərək ritual və qoruyucu təsəvvürlərdən ailə münasibətləri, nəsillərarası əlaqələr və xoş arzuların ifadəsi ilə bağlı sosial prosesə çevrilmişdir. Bu proses ənənəvi mifoloji təsəvvürlərin də zamanla yeni məna qazanmasına şərait yaratmışdır. Azərbaycan hədiyyəvermə ənənəsində də toy, nişan, bayram və digər mərasimlər zamanı hədiyyələrin təqdim edilməsi qohumluq, qonşuluq və qarşılıqlı yardım münasibətlərinin möhkəmləndirilməsinə xidmət edir. Bu adətlərin arxasın-

da dayanan xoşbəxtlik, bolluq, uğur, qorunma və firavanlıq kimi təsəvvürlər isə ənənəvi inancların müasir sosial mühitdə yaşamasını təmin edən amillərdəndir.

Müasir dövrdə urbanizasiya, sosial dəyişikliklər və rəqəmsal texnologiyaların inkişafı ənənələrin yalnız formasına deyil, onların yaratdığı simvolik təsəvvürlərə də təsir göstərir. Xüsusilə hong bao-nun fiziki zərfdən rəqəmsal formaya keçməsi ənənənin yeni kommunikasiya mühitinə uyğunlaşmasının nümunəsidir. Rəqəmsal mühitdə ənənəvi simvolların yeni formada təqdim olunması, onların sosial mediada yayılması və müxtəlif vizual və kommunikativ elementlərlə birləşməsi müasir folklorun yeni formalarının meydana çıxmasına şərait yaradır. Bu baxımdan müasir mifyaratma prosesi də ənənəvi mifoloji motivlərin tamamilə yox olması deyil, onların yeni sosial, texnoloji və kommunikativ şəraitdə yenidən mənalandırılması ilə xarakterizə olunur.

Beləliklə, hong bao və Azərbaycan hədiyyəvermə ənənəsinin inkişafı göstərir ki, folklor keçmişlə müasirlik arasında əlaqə yaradan dinamik mədəni sistemdir. Ənənəvi inanclar və simvollar müasir cəmiyyətdə yeni məna qazanaraq sosial davranışlara və kollektiv təsəvvürlərə təsir göstərə bilər. Bu baxımdan ənənənin davamlılığı onun dəyişməz qalmasında deyil, yeni tarixi və sosial şəraitə uyğunlaşaraq əsas mədəni funksiyalarını qorumasındadır. Müasir mifyaratma da məhz bu transformasiya prosesinin tərkib hissəsi kimi nəzərdən keçirilə bilər: keçmişdən gələn mifoloji motivlər yeni sosial reallıqlar, texnologiyalar və kommunikasiya vasitələri ilə qarşılıqlı əlaqəyə girərək yeni simvolik təsəvvürlərin formalaşmasına zəmin yaradır.

## ƏDƏBİYYYAT

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə. II cild / AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu; baş red. T. Ə. Bünyadov. – Bakı: Şərq-Qərb, 2007. – 384 s.

2. Azərbaycan etnoqrafiyası: 3 cilddə. III cild / AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu; baş red. T. Ə. Bünyadov. – Bakı: Şərq-Qərb, 2007. – 568 s.

3. 陈基余，张海鹏，臧宏等. **安徽百科全**书. – **南京**: **南京大学出版社**, 1994. Chen Jiyu, Zhang Haipeng, Zang Hong, et al. *Encyclopedia of Anhui*. – Nanjing: Nanjing University Press, 1994.

4. Li J. Monetized socialization on the front end: exchanging money as social activities through Red Packet and Transfer on WeChat // Journal of Cultural Economy. – 2025. – Vol. 18, No. 2. – P. 284–303. – DOI: 10.1080/17530350.2025.2455464.

5. Louis Augustin-Jean and Vandana Saxena, Digitalising Chinese New Year Red Packets: Changing Practices and Meanings, China Prespectives, 2024, 21-29.

6. **施慧**. **民**间压岁钱习俗小考 // **神州民俗**. – 2010. – № 132. – S. 7–10. Shi Hui. A Brief Study of Folk Customs Regarding *Yasuiqian* (Lunar New Year Money) // *Shenzhou Minsu* (Folklore of the Divine Land). – 2010. – No. 132. – pp. 7–10.

7. **史仲文**，**胡**晓林. **中**华文化习俗辞典·**文化**习俗. – **北京**: **中国国**际广播出版社, 1998. Shi Zhongwen, Hu Xiaolin. Dictionary of Chinese

Cultural Customs: Cultural Customs. – Beijing: China International Radio Press, 1998.

8. Tu, F. (2016). WeChat and Civil Society in China. *Communication and the Public*, 1(3), 343–350. DOI: 10.1177/2057047316667518.

9. Vəliyev Ə. İ. Azərbaycanda yaşayan azsaylı xalqların toy mərasimləri // Azərbaycan folkloru və milli-mədəni müxtəliflik: Beynəlxalq elmi-praktik konfransın materialları. – Zaqatala, 19–20 may 2016. – Bakı: Mütərcim, 2016.

10. Xəlilova M. Toy mərasimlərinin mərhələləri xalq adətlərinin göstəricisi kimi // Dədə Qorqud. – 2025. – № 1. – S. 90–96. – DOI: 10.59849/2309-7949.2025.1.90.

11. Yalçın-Heckmann L. The Political Economy of an Azeri Wedding. Working Paper No. 28. – Halle/Saale: Max Planck Institute for Social Anthropology, 2001.

İnternet resursları

1. UNESCO. Spring festival, social practices of the Chinese people in celebration of traditional new year – 2024. – UNESCO Intangible Cultural Heritage. – URL: https://ich.unesco.org/en/RL/spring-festival-social-practices-of-the-chinese-people-in-celebration-of-traditional-new-year-02126

2. Elizabeth Yuko, Why do people give red envelopes on Lunar New Year URL: https://www.history.com/articles/red-envelopes-chinese-new-year

3. 萧放. 传统新年礼俗与中国人的时间更新意识 . – 全国哲学社会科学工作办公室, 2022-01-27. – Xiao Fang. Traditional New Year Customs and the Chinese Sense of Temporal Renewal. National Office for Philosophy and Social Sciences. URL: http://www.nopss.gov.cn/n1/2022/0127/c441752-32341302.html